*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 454-460*

https://doi.org/10.62837/2025.3.454

**ŞAKİR CƏFƏROV,**
***filologiya üzrə fəlsəfə doktoru,***
***BDU-nun doktorantı***

# MİR CƏLALIN BƏDİİ YARADICILIĞI ƏDƏBİYYATŞÜNASLIQ ELMİNDƏ

***Xülasə:***

*Yazıçı Mir Cəlal ömrünün 50 ilini insanlığı ilə bəşəriyyətə, Azərbaycan milli mədəniyyətinə, ədəbiyyatına, xalqına xidmətə həsr etmişdir. Onun çoxşaxəli, zəngin bədii yaradıcılığı milli nəsrimizin ən parlaq, mənalı, seçilən nümunələrindəndir. Hekayələr ustası kimi tanınsa da Mir Cəlal, həm də ilk romançılarımızdan biri kimi ədəbiyyat tariximizdə yer tutur. Yazıçı Anar onun "Bir gəncin manifesti", "Dirilən adam" romanlarının yazıldığı dövrün özəlliklərini əks etdirməklə bərabər, roman janrını ədəbiyyatımızda təsdiq edən və doğmalaşdıran əsərlər kimi orta və ali məktəb dərsliklərimizə daxil olduğunu yazır. Nəsrimizin cavanlığını vurğulayan Anar onu da qeyd edir ki, "Kitabi-Dədə Qorqud"dan üzü bəri dastanlarımızda, nağıllarımızda, Molla Nəsrəddin lətifələrində, rəvayətlərdə, əfsanələrdə nəsr elementləri olub. Böyük Füzuli "Şikayətnamə"sini nəsrlə yazmışdır. Ancaq yalnız XIX əsrdə İsmayıl bəy Qutqaşınlının, Abbasqulu ağa Bakıxanovun hekayələriylə və xüsusilə də Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib"iylə yeni Azərbaycan nəsrinin tarixi başlanır". "Ədəbiyyatşünaslığın əsasları" dərsliyinin, "Klassik irs və müasirləri"mizə dair məqalələrin, monoqrafik tədqiqatların, "Azərbaycanda ədəbi məktəblər", "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında" və sair əsərlərin müəllifi, ədəbi-nəzəri düşüncə ilə ardıcıl və sistemli şəkildə məşğul olan Mir Cəlalın çoxşaxəli ədəbi-bədii, elmi, pedaqoji fəaliyyəti mövcuddur. M.Arif, M.Cəfər, M.Hüseyn, M.İbrahimov, H.Araslı, C.Xəndan, Ə.Şərif, M.Quluzadə, H.Əfəndiyev, A.Zamanov, İ.Əfəndiyev, Ə.Ağayev, Ə.Hüseynov, O.Həsənov, Q.Xəlilov, M.Əlioğlu, B.Nəbiyev, P.Xəlilov, Y.Seyidov, K.Məmmədov, K.Talıbzadə, kimi yazıçı, tənqidçi və alimlər Mir Cəlalın elmi, ədəbi-bədii yaradıcılığını yüksək qiymətləndirmişlər.*

*Azərbaycan elmi-filoloji fikrində öz əsərləri ilə bir çox yazıçı və şairlərimizin yaradıcılığı barədə xeyli sayda maraqlı məqalə müəllifi, AMEA-nın müxbir üzvü Nərgiz Paşayevanın "Yazıçı və zaman" məqaləsi dəyərlidir. Müəllif məqalədə Mir Cəlalın yaradıcılıq yolunu mədəni inkişafın, milli intibahın və ictimai təzadların fonunda təhlil edir. Mir Cəlal müəllimin bir yazıçı və ədəbiyyatşünas alim kimi bir sıra məqamlarına işıq salır: "Mir Cəlal heç vaxt olduğu yüksəklikdən enib, haqqı da olsa, heç kəsdən heç nəyi tələb etmədi. Çünki o yaxşı bilirdi ki, əsl yüksəklik kağızların, sənədlərin, möhürlərin, qərarların, iclasların hökmü ilə deyil, ləyaqətli insan ömrü və bu ömrün zamandan-zamana təsdiqi və təntənəsi ilə ölçülür. O da sirr deyil ki, daxilində bir ilahi qığılcım yaşayan hər bir yazıçı, alim, ümumiyyətlə, hər*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2025
Səh. 454-460

*bir istedad zaman çərçivəsini yararaq əbədiyyətə qovuşur. Beləliklə, yazıçı və zaman qarşıdurması həmişə olduğu kimi, bu dəfə də yazıçı qalibiyyəti ilə nəticələni**r"** (Nərgiz Paşayeva. "Yazıçı və zaman": ( Mir Cəlal-100) //Qarapapaqlar. - 2010. - №2.- səh.16-20)***.

***Açar sözlər:*** *hekayələr ustası, ədəbi-bədii, ədəbi - nəzəri, nəsr, tənqidçi, insan ömrü*

*Mir Cəlal ömrünün 50 ilini nadir istedadı və insanlığı ilə bəşəriyyətə, Azərbaycan milli mədəniyyətinə, ədəbiyyatına, xalqına xidmətə həsr etmişdir. Yazıçının çoxşaxəli, zəngin bədii yaradıcılığı milli nəsrimizin ən parlaq, mənalı, seçilən nümunələrindəndir. Hekayələr ustası kimi tanınan Mir Cəlal, həm də ilk romançılarımızdan biri kimi ədəbiyyat tariximizdə yer tutur. Yazıçı Anar onun "Bir gəncin manifesti", "Dirilən adam" romanlarının yazıldığı dövrün özəlliklərini əks etdirməklə bərabər, roman janrını ədəbiyyatımızda təsdiq edən və doğmalaşdıran əsərlər kimi orta və ali məktəb dərsliklərimizə daxil olduğunu yazır. Nəsrimizin cavanlığını vurğulayan Anar onu da qeyd edir ki, "Kitabi-Dədə Qorqud"dan üzü bəri dastanlarımızda, nağıllarımızda, Molla Nəsrəddin lətifələrində, rəvayətlərdə, əfsanələrdə nəsr elementləri olub, böyük Füzuli "Şikayətnamə"sini nəsrlə yazıb, "ancaq yalnız XIX əsrdə İsmayıl bəy Qutqaşınlının, Abbasqulu ağa Bakıxanovun hekayələriylə və xüsusilə də Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib"iylə yeni Azərbaycan nəsrinin tarixi başlanır". "Ədəbiyyatşünaslığın əsasları" dərsliyinin, "Klassik irs və müasirləri"mizə dair məqalələrin, monoqrafik tədqiqatların, "Azərbaycanda ədəbi məktəblər", "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında" və sair əsərlərin müəllifi, ədəbi-nəzəri düşüncə ilə ardıcıl və sistemli şəkildə məşğul olan Mir Cəlalın çoxşaxəli ədəbi-bədii, elmi, pedaqoji fəaliyyəti vardır. M.Arif, M.Cəfər, M.Hüseyn, M.İbrahimov, H.Araslı, C.Xəndan, Ə.Şərif, M.Quluzadə, H.Əfəndiyev, A.Zamanov, İ.Əfəndiyev, Ə.Ağayev, Ə.Hüseynov, O.Həsənov, Q.Xəlilov, M.Əlioğlu, B.Nəbiyev, P.Xəlilov, Y.Seyidov, K.Məmmədov, K.Talıbzadə, kimi yazıçı, tənqidçi və alimlər Mir Cəlalın elmi, ədəbi-bədii irsini yüksək qiymətləndirmişlər. Eyni zamanda "Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" kitabı elmi və ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Bu fundamental nəşri professor Teymur Əhmədov tərtib edib və nəşr etdirmişdir. O, indiyə qədər bir çox müəllifin qəzet, jurnal səhifələrində yatıb qalmış məqalələri bu kitaba daxil edilmişdir (Teymur Əhmədov. Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" kitabı, Bakı, "Nurlar", 2014, 348 s.) Kitab çox maraqlı bir formata malikdir. Nəşrin birinci cildi Mir Cəlalın həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyətini əks etdirir. Burada Mir Cəlal yaradıcılığı haqqında müasirlərinin ədəbi-nəzəri düşüncələri və xatirələri, böyük ədibə həsr olunmuş poetik nümunələr yer alır. Materiallar öz tematikasına görə konkret fəsillərə bölünüb. "Ədəbi-nəzəri düşüncələr" adlanan I fəsildə Mir Cəlalın Məmməd Arif, Məsud Vəliyev, Əhəd Hüseynov, Yəhya Seyidov, Qulu Xəlilov, Qara Namazov, Cəlal*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 454-460*

*Abdullayev, Xeyrulla Məmmədov kimi əqidə dostları, ədəbiyyatşünaslıq elmimizin və ədəbi tənqidimizin görkəmli nümayəndələrinin məqalələri təqdim olunur.*

Qeyd etməliyik Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidimizin korifeylərindən olan Məmməd Arifin "Yazıçı və alim" məqaləsi Mir Cəlal yaradıcılığını iki istiqamətdən – həm bədii söz ustası, həm də filoloq kimi təhlilini verir. Məqalədə Mir Cəlal bir nasir kimi belə təqdim edilmişdir: "Azərbaycan nəsrində Mir Cəlalın özünəməxsus mövqeyi vardır. Bu mövqeyi o öz parlaq yaradıcılıq siması ilə, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri ilə tutmuşdur. Onun əsərlərini başqa bir yazıçının əsərləri ilə qarışdırmaq olmaz. Mir Cəlal öz yazı tərzi, təbii dili, bədii ifadə vasitələri, üslubu ilə fərqlənir və diqqəti cəlb edir. Onun sadə, aydın və şirin bir dili vardır; eyni zamanda, bu dil çox əlvan və mənalıdır. Dialoqlardakı təbiilik və canlılıq ədibin əsərlərinə xüsusi bir gözəllik verir, onların bədii təsir qüvvəsini artırır" (Məmməd Arif. Ədəbi - tənqidi məqalələri, Bakı, Azərnəşr, 1958, 448 s.). Mir Cəlal yaradıcılığı ədbiyyatşünaslıq elmində, Azərbaycan ədəbi mühitində mühüm yer tutur. Bu baxımdan İlyas Əfəndiyevin "İstedadlı nasir" adlı məqaləsi də xarakterikdir. Onun və ədəbiyyatşünas alim Məmməd Arifin fikirlərinin üst-üstə düşdüyünü aşağıdakı sitat əyani şəkildə təsdiqləyir: "Aydın, sadə və təbii yazmaq onun (Mir Cəlalın ) əsas yaradıcılıq prinsiplərindəndir… O, heç bir zaman oxucunu "heyrətə salan", "mürəkkəb" süjetlər qurmağa cəhd etmir, "fövqəladə" əhvalatlar quraşdırmır. Həyatımızın müəyyən bir parçasını qələmə alaraq şirin, canlı və aydın bir dil ilə təsvir edir. İnsanların əhval- ruhiyyəsi haqqında cansıxıcı, uzun mühakimələr yürütmür. Onların psixoloji aləmini daima hərəkətdə, fəaliyyətdə açmağa çalışır... O, bütün yazılarında səmimidir, təbiidi**r.**

Yazıçının yaradıcılığını tədqiq etdikcə məlum olr ki, bugünkü ədəbiyyatşünas alimlərimizin Mir Cəlal haqqında ədəbi düşüncələri zamanın, müasirliyin üslubi çalarlarından qaynaqlanır və biz bu məqalələrin əksəriyyətində sənətkar yazıçının bədii fikir tariximizin ümumi inkişaf kontekstində təhlilini görürük. Azərbaycan elmi-filoloji fikrində öz əsərləri ilə bir çox yazıçı və şairlərimizin yaradıcılığı barədə xeyli sayda maraqlı məqalə müəllifi, AMEA-nın müxbir üzvü Nərgiz Paşayevanın "Yazıçı və zaman" məqaləsi diqqətəlayiqdir. Müəllif nəşrin prelüdiya adlandıra biləcəyimiz giriş hissəsində XX əsrin yetirməsi olan Mir Cəlalın yaradıcılıq yolunu mədəni inkişafın, milli intibahın və ictimai təzadların fonunda təhlil edir. Mir Cəlal müəllimin bir yazıçı və ədəbiyyatşünas alim kimi həm yaradıcılıq yolu, həm də bir insan olaraq xarakterinin bir sıra məqamlarına işıq salır: "Mir Cəlal heç vaxt olduğu yüksəklikdən enib, haqqı da olsa, heç kəsdən heç nəyi tələb etmədi. Çünki o yaxşı bilirdi ki, əsl yüksəklik kağızların, sənədlərin, möhürlərin, qərarların, iclasların hökmü ilə deyil, ləyaqətli insan ömrü və bu ömrün zamandan-zamana təsdiqi və təntənəsi ilə ölçülür. O da sirr deyil ki, daxilində bir ilahi qığılcım yaşayan hər bir yazıçı, alim, ümumiyyətlə, hər bir istedad zaman çərçivəsini yararaq əbədiyyətə qovuşur. Beləliklə, yazıçı və zaman qarşıdurması həmişə olduğu kimi, bu dəfə də

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 454-460*

yazıçı qalibiyyəti ilə nəticələnir" (Nərgiz Paşayeva."Yazıçı və zaman":(Mir Cəlal-100) //Qarapapaqlar. 2010, №2, səh. 16-20).

Mir Cəlal və Firidun Hüseynovu yaxşı tanıyan hər kəs bilir ki, bu iki alim insanlıqda, elmi yaradıcılıqda, klassikaya məhəbbətdə bir-birini tamamlayan alimlər kimi bəzən ən çətin tədris vəsaitini, dərsliyi bir yerdə yazardılar. Firidun Hüseynov Mir Cəlal müəllimin çox istədiyi tələbələrdən olub və onların xarakterində bir oxşarlıq vardı.Ədəbiyyatşünas alim Firidun Hüseynovun "İşıqlı adam" sərlövhəli yazısında Mir Cəlalın ədəbi-bədii yaradıcılığından, alimliyindən deyil, onunla iyirmi beş illik tanışlıq, tələbəlik, aspirantlıq, müəllimlik, birgə iş və dostluq münasibəti ilə bağlı olan, kitab-dəftərə düşməyən maraqlı şəxsi keyfiyyətləri, elmi və ədəbi söhbətləri, mübahisələri qələmə almışdır. İllərlə bir yerdə çalışdığı müəlliminin dəqiq portretini yaratmışdır: "Mir Cəlal bir insan, ədib, müəllim, alim, kafedra müdiri kimi həmişə, yaşının bütün çağlarında və hər yerdə bir cür görünən adam idi. O, sadəlik, səmimilik, təvazökarlıq timsalı idi"(Firidun Hüseynovun "İşıqlı adam"məqaləsi). Bundan başqa Mir Cəlalın bədii yaradıcılığına aid yazılan əsərlər içərisində Elçinin "Sadəlik və müdriklik", Nizami Cəfərovun "Mir Cəlal müəllim", Abdulla Abbasovun "Böyük naşir, qüdrətli alim, gözəl insan" və digər yazıların adını çəkmək yerinə düşər. Xalq Yazıçısı Elçinin "Sadəlik və müdriklik" adlı xatirəsində Mir Cəlal – İlyas Əfəndiyev dostluğuna, Mir Cəlal yaradıcılığına onun dostlarının münasibətinə, böyük ədəbiyyata bağlılığına və digər məqama toxunur.

Bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da bu böyük ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərə tərcümə olunaraq maraqla oxunur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Mir Cəlal. Seçilmiş əsərləri (dörd cilddə), I c. Bakı: Azərnəşr, 1967, 519 səh.
2. Mir Cəlal. Seçilmiş əsərləri (dörd cilddə), II c. Bakı: Azərnəşr, 1967, 499 səh
3. Mir Cəlal.Seçilmiş əsərləri (dörd cilddə). III c. Bakı: Azərnəşr, 1968, 526 səh.
4. Mir Cəlal.Seçilmiş əsərləri (dörd cilddə). IV c. Bakı: Azərnəşr, 1968, 474 səh.
5. XX əsr Azərbaycan ədəbiyyatı (dərslik). Bakı: Maarif, 1969, 348 səh. (şərikli).
6. Nərgiz Paşayeva. "Yazıçı və zaman": ( Mir Cəlal-100) //Qarapapaqlar, 2010, №2, səh.16-20
7. Teymur Əhmədov. Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" kitabı, Bakı, "Nurlar", 2014, 348 s.
8. Məmməd Arif. Ədəbi - tənqidi məqalələri, Bakı, Azərnəşr, 1958, 448 s.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 454-460*

**REZЮME**

**ДЖАФАРОВ Ш. Д.**

**ХУДОЖЕСТВЕННОЕ ТВОРЧЕСТВО МИР ДЖАЛАЛА В ЛИТЕРАТУРНОЙ КРИТИКЕ**

Писатель Мир Джалал посвятил 50 лет своей жизни служению человечеству, азербайджанской национальной культуре, литературе и своему народу. Его многогранное, богатое художественное творчество является одним из самых ярких, содержательных и выдающихся образцов нашей национальной прозы. Хотя Мир Джалал известен как мастер коротких рассказов, он также занимает место в истории нашей литературы как один из первых наших романистов. Писатель Анар пишет, что его романы «Манифест молодого человека» и «Воскресший человек» отражают особенности эпохи, в которую они были написаны, и включены в наши учебники для средней и высшей школы как произведения, утверждающие и закрепляющие жанр романа в нашей литературе. Подчеркивая молодость нашей прозы, Анар также отмечает, что с начала «Книги Деде Горгуда» в наших эпосах, сказках, анекдотах Моллы Насреддина, повестях и легендах присутствуют элементы прозы. Великий Физули написал свою «Жалобу» в прозе. Однако только в XIX веке с повестей Исмаил бека Гутгашинли, Аббасгулу аги Бакиханова и особенно с «Обманутого Кевакиба» Мирзы Фатали Ахундзаде начинается история новой азербайджанской прозы. Автор учебника «Основы литературоведения», статей «Классическое наследие и наши современники», монографических исследований «Литературные школы в Азербайджане», «Творчество Физули», «О реализме Джалила Мамедкулизаде» и других трудов, Мир Джалал, последовательно и систематически занимавшийся литературно-теоретической мыслью, ведет многогранную литературно-художественную, научную и педагогическую деятельность. М.Ариф, М.Джафар, М.Гусейн, М.Ибрагимов, Х.Араслы, Дж.Хандан, А.Шариф, М.Гулузаде, Х.Эфендиев, А.Заманов, И.Эфендиев, А.Агаев, Писатели, критики и ученые, такие как А.Гусейнов, О.Гасанов, Г.Халилов, М.Алиоглу, Б.Набиев, П.Халилов, Ю.Сеидов, К.Мамедов, К.Талибзаде высоко оценили научное, литературное и художественное творчество Мир Джалала.

Статья «Писатель и время» члена-корреспондента НАНА Наргиз Пашаевой, которая является автором большого количества интересных статей о творчестве многих наших писателей и поэтов, их произведениях, имеет ценное значение в азербайджанской научно-филологической мысли. В статье автор анализирует творческий путь Мир Джалала на фоне культурного развития, национального возрождения и социальных контрастов. Она проливает свет на несколько сторон Мир Джалал Муаллима как писателя и литературного критика: «Мир Джалал никогда не спускался со своей высоты, и

даже если имел право, то ничего ни от кого не требовал. Потому что он хорошо знал, что истинная высота измеряется не указом бумаг, документов, печатей, решений, заседаний, а достойной человеческой жизнью и подтверждением и празднованием этой жизни время от времени. Не секрет, что каждый писатель, ученый, вообще каждый талант, который живет в нем божественной искрой, прорывает временные рамки и достигает вечности. Таким образом, конфликт между писателем и временем, как всегда, на этот раз также заканчивается победой писателя» (Наргиз Пашаева. «Писатель и время»: (Мир Джалал-100) //Qarapapaglar. - 2010. - № 2. - С. 16-20).

**Ключевые слова:** рассказчик, литературно-художественный, литературно-теоретический, прозаик, критик, человеческая жизнь

## SUMMARY

**JAFAROV SHAKIR**

## MIR JALAL'S ARTISTIC CREATIVITY IN LITERARY CRITICISM

Writer Mir Jalal dedicated 50 years of his life to humanity, to the service of the Azerbaijani national culture, literature, and people. His multifaceted, rich artistic creativity is one of the brightest, most meaningful, and distinguished examples of our national prose. Although known as a master of stories, Mir Jalal also takes his place in our literary history as one of our first novelists. Writer Anar writes that his novels “Manifesto of a Young Man” and “The Resurrected Man” reflect the peculiarities of the era in which they were written, and are included in our secondary and higher school textbooks as works that confirm and make the novel genre native in our literature. Emphasizing the youth of our prose, Anar also notes that since “Kitabi-Dade Gorgud” there have been prose elements in our epics, fairy tales, Molla Nasreddin’s anecdotes, narratives, and legends. The great Fuzuli wrote his “Complaint” in prose. However, only in the 19th century, with the stories of Ismayil bey Gutgashinli, Abbasgulu agha Bakikhanov, and especially with Mirza Fatali Akhundzadeh's "The Deceived Kevakib", the history of new Azerbaijani prose begins. The author of the textbook "Fundamentals of Literary Studies", articles on "Classical Heritage and Our Contemporaries", monographic studies, "Literary Schools in Azerbaijan", "Fuzuli's Art", "On the Realism of Jalil Mammadguluzadeh" and other works, Mir Jalal, who consistently and systematically engaged in literary and theoretical thought, has a multifaceted literary, artistic, scientific, and pedagogical activity. M.Arif, M.Jafar, M.Huseyn, M.Ibrahimov, H.Arasli, J.Khandan, A.Sharif, M.Guluzadeh, H.Efendiyev, A.Zamanov, I.Efendiyev, A.Agayev, Writers, critics and scholars such as A. Huseynov, O. Hasanov, G. Khalilov, M. Alioglu, B. Nabiyev, P. Khalilov, Y. Seyidov, K. Mammadov, K.

Talibzadeh highly appreciated the scientific, literary and artistic creativity of Mir Jalal.

The article "Writer and Time" by Nargiz Pashayeva, a corresponding member of ANAS, who is the author of a large number of interesting articles about the creativity of many of our writers and poets with her works, is valuable in Azerbaijani scientific and philological thought. In the article, the author analyzes Mir Jalal's creative path against the background of cultural development, national revival and social contrasts. It sheds light on several aspects of Mir Jalal Muallim as a writer and literary critic: "Mir Jalal never came down from his height, and even if he had the right, he did not demand anything from anyone. Because he knew well that true height is measured not by the decree of papers, documents, seals, decisions, meetings, but by a dignified human life and the confirmation and celebration of this life from time to time. It is no secret that every writer, scientist, in general, every talent who lives a divine spark within him breaks through the time frame and reaches eternity. Thus, the conflict between the writer and time, as always, this time also results in the victory of the writer" (Nargiz Pashayeva. "Writer and Time": (Mir Jalal-100) //Qarapapaglar. - 2010. - No. 2. - pp. 16-20).

**Keywords:** storyteller, literary-fictional, literary-theoretical, prose, critic, human life

**Rəyçi: Qərənfil Dünyamin qızı (Quliyeva), filologiya elmləri doktoru, dosent**